# Qələbə səninlədir, Azərbaycan Ordusu!






## Azərbaycan tarixi ədaləti qətiyyətlə bərpa edir



**_Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-dən başlanan əks-həmlə əməliyyatları nəticəsində indiyədək 200-dən çox kənd, şəhər və qəsəbə ermənilərdən təmizlənib. Murov zirvəsi, Xudafərin körpüsü və bir çox strateji yüksəkliklər işğaldan azad edilib. Bütün bu uğurlar Ali Baş Komandan İlham Əliyevin müdrik siyasətinin, Azərbaycan Ordusuna diqqət və qayğısının, silahlı qüvvələrimizin döyüş əzminin, müasir silah-sursatla, keyfiyyətli döyüş texnikası ilə təchizatının yüksək səviyyədə gerçəkləşdirilməsinin məntiqi nəticəsidir. Bir sözlə, cəbhə xəttindəki hazırda davam edən döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qüdrəti ilə bağlı söylənilənlərin növbəti əyani təsdiqidir. 2016-cı ilin Aprel, cari ilin Tovuz döyüşlərində qələbələr qazanan ordumuz bu gün düşmənə aman vermir, işğalçını, necə deyərlər, qarşısına qatıb qovur._**

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev respublikamızda həyata keçirilən ordu quruculuğu barədə deyib: “Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək. Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək”.

Hazırda torpaqlarımızın qəsbkarlardan azad olunması üçün davam edən Vətən müharibəsi bir daha göstərir ki, ordu quruculuğu, həmçinin ölkəmizin hərbi gücünün müasir çağırışlara, ən modern döyüş tələblərinə uyğun gücləndirilməsi Prezident İlham Əliyevin zamanında həyata keçirdiyi mühüm tədbirlərdir. Bunun nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri yeni tarix yazır. Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsinin hər günü həm müstəqillik, həm də hərb tariximizə qızıl hərflərlə həkk olunur. Yaşayış məntəqələrimiz bir-birinin ardınca azad edilir, düşmənin dayaq məntəqələri dağıdılır, strateji yüksəkliklər geri alınır.

Bəli, Ermənistan ordusu bu gün acı məğlubiyyətlə üz-üzədir. Azərbaycan Silahlı Qüvvələri tərəfindən torpaqlarımızın işğaldan azad edilməsi, düşmənin isə canlı qüvvə və texnika, silah-sursar itkisinin gündən-günə daha geniş miqyas alması işğalçı ölkədə vəziyyəti daha da ağırlaşdırır, əhalinin hakimiyyətə qarşı qarşıdurmasını gücləndirir. Təcavüzkar dövlətdə müharibə həqiqətləri vətəndaşlardan gizlədilir, adamlara yanlış informasiyalar verilir, bir-birini təkzib edən açıqlamalar cəmiyyəti çaş-baş salır. Lakin bəzi müxalifət nümayəndələri, keçmiş hərbçilər tərəfindən isə Ermənistan rəhbərliyinin artıq məğlubiyyətlə barışmağını elan etməsinin, bundan sonra heç olmazsa, itkilərin azalmasının mümkünlüyünün zəruriliyi vurğulanır.

Ermənistanın baş naziri Nikol Paşinyan isə, demək olar ki, ağlını itirib, nə dediyi, hansı addımlar atdığı anlaşılmır. Gah sosial şəbəkə hesabı vasitəsilə canlı yayıma çıxaraq “Dağlıq Qarabağ münaqişəsinin diplomatik həllinin olmadığını” bildirir, gah da müxtəlif dövlət və hökumət başçılarına müraciətlər edərək yardım üçün ağlayıb-sızlayır.

İşğalçı cəbhədə uduzması ilə heç cür barışmır. “Məğlubedilməz ordu” mifinin dağılmasını isə əsası olmayan iddialarla əlaqələndirməyə cəhd göstərir. Belə bir fikir yürüdür ki, bu uğursuzluğun əsas səbəbi Azərbaycan Ordusunun Türkiyə hərbçiləri, eyni zamanda, Yaxın Şərqdən olan yaraqlılarla birgə döyüşməsi ilə bağlıdır. Lakin bu zaman ortaya heç bir fakt, dəlil qoya bilmir. Bu, əslində, Paşinyan rejiminin artıq reallığı, mövcud gerçəkliyi qəbul etmək gücündə olmadığından xəbər verir.

Nikol Paşinyanın son günlərdəki sərsəmləmələri də məhz bununla bağlıdır. Onun düşüncəsi, fikirləri heç bir məntiqə sığmır, necə deyərlər, ağına-bozuna baxmadan iddialar səsləndirir, heç bir əsası olmadan, fakt göstərmədən xarici mediaya müsahibələrində cidd-cəhdlə Türkiyəni qaralayır, qardaş ölkəyə iftiralar yağdırır, münaqişədə tərəf kimi iştirak etdiyini israrla bildirir. Bununla kifayətlənməyən sorosçu baş nazir Azərbaycanın Türkiyə vasitəsilə Yaxın Şərqdən yaraqlıları hərbi əməliyyatlara cəlb etdiyini vurğulayır.

Həmişə olduğu kimi, bu gün də erməni lobbisi Ermənistan rejiminin əsas hamisinə çevrilərək, Azərbaycana qarşı çirkin informasiya müharibəsi aparır, xalqımızı təxribatlarla və terrorla hədələyir. Əslində isə bu faşist əməlləri erməniliyə məxsus olan fəaliyyətlərdir. Xarici ölkələrdə şəbəkələşən erməni diasporu Ermənistanın müharibədə məğlub olduğunu görərək, bütün gücünü qarayaxmaya, xarici mediada əleyhimizə iftiralar səsləndirməyə yönəldib. Bu məsələdə ədalətli mövqe tutan xarici kütləvi informasiya vasitələrini isə susdurmağa, basqı altında saxlamağa çalışıb. Politoloq Fikrət Sadıqov KİV-ə müsahibəsində bu barədə deyib: “Döyüş meydanında uduzan ermənilər yalanlarını ifşa edən dünya mediasını müxtəlif yollarla susdurmağa çalışırlar. Onlar həqiqəti yazan, doğrunu işıqlandıran dünyanın aparıcı KİV nümayəndələrini müxtəlif yollarla hədələyirlər, təzyiqlər edirlər və onları susdurmaq istəyirlər. Ancaq bütün dünya bunu görür, başa düşür.

Ermənilər hələ müharibə başlamamışdan öncə də Azərbaycana qarşı informasiya müharibəsi aparırdı. Bütün Avropa ölkələrinin aparıcı nəşrlərində qərəzli erməni yazılarını görmək olardı. Bu, onların təbliğat maşınının tərkib hissəsidir. Çünki ermənilər bir sıra istiqamətlərdə uzun illərdir ki, çalışırlar. Ancaq indi Qərb mediası onları ifşa edir. Biz də gərək əks-təbliğatımızı gücləndirək. Xüsusilə, xaricdəki soydaşlarımızın, diaspor təşkilatlarımızın vasitəsilə onlara layiqli cavablar verməli, beynəlxalq ictimaiyyətə Ermənistanın terrorçu mahiyyətini bir daha göstərməliyik”.

Yeri gəlmişkən, bu gün sadə ermənilər artıq baş nazir Nikol Paşinyanın dərin ağıl-düşüncədən məhrum olduğunu, idarəetmə yarıtmazlığı üzündən ölkədəki sosial-iqtisadi, siyasi böhranı dərinləşdirdiyini yaxşı anlayırlar. Bu, sosial şəbəkələrdə baş nazirə ünvanlanan – “Nikol Paşinyan, yalnız mənasız müsahibələr verməklə məşğulsan, bizim axırımız necə olacaq?”, “Bütün məsuliyyət sənin üzərindədir, hər şey sənə görə baş verir”, “Sən xainsən, danışma” kimi mesajlarda da özünü qabarıq büruzə verir.

Nikol Paşinyan təəssüf ki, təcavüzkar Ermənistan silahlı qüvvələrinin ardıcıl şəkildə təxribat əməlləri törətdiyi ötən illər ərzində günlərin birində Azərbaycan xalqının səbr kasasının daşacağını, rəşadətli ordumuzun gücü qarşısında aciz qalacağını başa düşmədi. Sorosçu baş nazir, eyni zamanda, Azərbaycanın son 17 ildə Ermənistan kimi ancaq səngərlər qazmaqla, istehkamlar yaratmaqla işini bitmiş hesab etmədiyini, sosial-iqtisadi inkişafı diqqət mərkəzində saxladığını, ordunu gücləndirdiyini, müasirləşdirdiyini anlamadı.

Bütün bunlara görə də sentyabrın 27-də Azərbaycan əks-həmlə əməliyyatlarına başlayanda bütün yerli və beynəlxalq ekspertlər, ümumilikdə hər kəs qüdrəti Azərbaycan dövlətinin, onun güclü iqtisadiyyatı və ordusunun qarşısında təsavüzkarın tab gətirməyəcəyinə, məğlub olacağına əmin idi. Amma N.Paşinyan bu deyilənləri qulaqardına vuraraq təxribatlarını davam etdirdi, cəbhədə uduzduğunu anlayıb hirs-hikkəsini müharibə zonasından çox uzaq ərazidəki yaşayış məntəqələrinin üzərinə tökdü, dinc əhalini atəş altında saxladı. Bununla bərabər vəziyyətdən çıxmaq üçün Gəncə və Bərdə terrorlarını törədərək, üçüncü ölkələri münaqişəyə qoşmağa, beləliklə çirkin məqsədini reallaşdırmağa cəhd göstərdi.

Nəticə isə göz önündədir. Nə xalqımızın iradəsini sarsıda, nə də üçüncü ölkələri öz çirkin niyyətinin gerçəkləşdirməsinə yönəldə bildi. Əksinə, istər həmin dövlətlər, istərsə də beynəlxalq aləm onun işğalçı, faşist xislətinin bir daha şahidi oldular.

Prezident İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibəsində də işğalçı Ermənistanın xain hücumları, terror əməlləri ilə xalqımızı qorxu, təşviş içində saxlamaq, insanlarımızın ruhunu sarsıtmaq gücündə olmadığını vurğulayıb. Eyni zamanda, Gəncəyə gecə vaxtı edilən iki namərd hücum nəticəsində 30 günahsız insanın, o cümlədən, uşaqların öldürüldüyünü diqqətə çatdıraraq, deyib: “İkinci atəşkəs elan olunduqdan beş dəqiqədən sonra onlar tərəfindən pozulmuşdur və üçüncü atəşkəsi onlar Bərdəyə hücum etməklə pozdular. Beləliklə, bunu edən biz deyildik. Biz nə etməli idik? Onlar bizi öldürdükdə oturub gözləməli idik? Əlbəttə ki, biz cavab verdik və bunu etməyə davam edəcəyik. Onlara atəşkəs təcavüzlərini davam etdirmək, bizim azad etdiyimiz torpaqları geri alıb və yenidən işğal etməyə cəhd etmək üçün lazım idi. Onlar mülki şəxslərə hücum etməklə Azərbaycanda, həmçinin xaos və panika yaratmaq istəyirdilər. Lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər. Bəli, biz bu namərd hücumlardan əziyyət çəkdik. Lakin bu, bizim iradəmizi sındırmadı. Əksinə, bu, bizi daha da güclü etdi”.

Yeri gəlmişkən, Azərbaycan Baş Prokurorluğunun mətbuat xidmətinin məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 91 nəfər həlak olub, 405 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2734 ev, 98 çoxmənzilli yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

Paşinyana kompromislər haqqında sual verildikdə onun həmişə müqəddəratı təyinetmədən danışdığına diqqət çəkən dövlətimizin başçısı yuxarıda adı çəkilən müsahibəsində bildirib: “Lakin öz müqəddəratını təyinetmə onların getməli olduğu kompromis deyil. Onların kompromisi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və əsas prinsiplərin icrasına müvafiq olaraq işğal olunmuş bütün ərazilərin boşaldılması olmalıdır. Əsas prinsiplərdə deyilir ki, əvvəlcə beş rayon, sonra da iki rayon boşaldılmalıdır. Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o, deməlidir ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu, onu göstərir ki, o, müharibənin dayanmasını istəmir”.

Bəli, cəbhədə ciddi məğlubiyyətlə üzləşən düşmən geri çəkilmək, uduzduğunu bəyan etmək istəmir. Ermənistan ordusu hazırda həm yaşlı insanları, uşaq və qadınları, xəstə şəxsləri, məhbusları, hətta ayrı-ayrı dinlərin nümayəndələrini döyüşlərə cəlb edir. Halbuki, dinlərin bəşəriyyətə göndərilməsində əsas məqsəd insanlar arasında sülhə, birliyə və həmrəyliyə nail olmaq, bərabərliyi gerçəkləşdirməkdir. Bütün dinlərdə insanları qətlə yetirmək, dinc insanların qanına bais olmaq günah hesab olunur. Amma bu, Ermənistan siyasətində nəzərə çarpmır, hətta Ermənistanda hakim dini cərəyan sayılan Ermənistan Qriqoryan kilsəsinin başçısı bütün erməni xalqını döyüşə səsləyir. Bu, Ermənistan cəmiyyətindəki mövcud eybəcərlikləri bütün çılpaqlığı ilə göstərir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***